AzPMA
Azerbaijan project management association

**Azərbaycan Layihə İdarəçiliyi Assosiasiyası**

**Assosiasiya Üzvünün Etik Kodeksi**

IPMA
international project management association

### Giriş

Assosiasiyanın üzvü öz şərəfli peşəsini yerinə yetirməklə iqtisadiyyatın inkişafında böyük rol oynayır. Bu səbəbdən Assosiasiyanın üzvü öz işini peşəkar səviyyədə qurmalı, bütün etik normalara riayət etməli və komandanın üzvlərinin, tərəfdaşlarının, podratçıların, sifarişçinin etimadını qazanmalıdır.

### Bölmə 1

**Assosiasiyanın üzvü yüksək standartların tələblərinə cavab verməli və fəaliyyəti üzrə:**

- öz hərəkətlərinə cavab verməlidir;
- müvafiq təhsilə, təcrübəyə və ya peşəkarlıq səviyyəsinə malik olduğu halda layihələri idarəetməyi və müəyyən məsuliyyəti öz üzərinə götürməyi bacarmalıdır;
- peşəkar işgüzarlığını həmişə yüksək səviyyədə saxlamaq, ixtisasartırmanın və peşəkar sertifikat almağın əhəmiyyətini dərk etməlidir;
- öz peşəsinin qədrini bilməli və onun nüfuzunu saxlamalıdır;
- təcrübə mübadiləsində aktiv iştirak etməli və digər həmkarlarını bu işə cəlb etməlidir;
- ölkənin qanunlarına riayət etməlidir;
- bu Kodeksə uyğun olaraq öz fəaliyyətini həyata keçirməlidir və öz həmkarlarını bu kimi işlərdə mükafatlandırmalıdır.

### Bölmə 2

**Assosiasiyanın üzvü layihə idarəçiliyi prosesində:**

- maksimum səmərəliliyi təmin etməli və xərcləri minimumlaşdırmalıdır;
- ayrılmış büdcə və müəyyənləşdirilmiş müddət çərçivəsində layihəni keyfiyyətli və peşəkar şəkildə yerinə yetirmək üçün layihə idarəçiliyinin metodları və vasitələrini tətbiq etməlidir;
- komanda üzvlərini, əməkdaşlarını və həmkarlarını dini, cinsi, yaş və sosial əlamətlərinə görə fərqləndirməməlidirlər;
- komanda üzvlərini zərərli fiziki və psixoloji təsirlərdən qorumalıdır;
- öz ünvanına tənqidi konstruktiv qəbul etməli və başqalarının hərəkətlərinə tənqidi yanaşmalıdır;
- komanda üzvlərinə, əməkdaşlarına və həmkarlarına peşəkarlıq səviyyəsinin inkişaf etdirilməsində kömək etməlidir.

### Bölmə 3

**Assosiasiyanın üzvü layihə idarəçiliyi sahəsində layihə sahibinə və sifariş çiyə münasibətdə:**

- peşəkar və işgüzar şəraitdə onların maraqlarını vicdanla təmsil etməlidir;
- layihənin bütün məsələləri üzrə məlumatların kommersiya sirri olduğunu nəzərə alaraq onların məxfiliyini təmin etməlidir;
- sifarişçilərin, sahibkarların, peşəkar mütəxəssislərin, ictimai təşkilatların maraqlarının kəsişdiyini və münaqişə mənbəyinə çevriləcəyini əvvəlcədən hiss etməli və onları məlumatlandırmalıdır;
- hər hansı bir hədiyyənin alınmasına, rüşvətə, əmək haqqından əlavə ödəmələrə yol verməməlidir;
- layihənin keyfiyyəti, büdcəsi və müddəti haqqında obyektiv və real hesabat verməlidir.

### Bölmə 4

**Assosiasiyanın üzvü layihə idarəçiliyi sahəsində cəmiyyətə münasibətdə:**

- ictimai təhlükəsizliyi, sağlamlığın qorunmasını təmin etməli, ümumi maraqlara toxunan xoşagəlməz və qanunsuz hərəkətlərə qarşı açıq çıxış etməlidir;
- layihə idarəçiliyi sahəsində əldə olunan müvəffəqiyyətlərdə "Layihə Rəhbəri" rolunu qiymətləndirməli və ictimaiyyətə çatdırmalıdır.

**Yuxarıda göstərilən etik normalarla tanış oldum və onlara riayət etməyə razıyam.**

______________________ tarix

______________________ Adı, atasının adı, soyadı

______________________ imza